**“Təsdiq edilmişdir”**
Azərbaycan Respublikası Mərkəzi
Bankı İdarə Heyətinin
“15” may 2009-cu il tarixli
qərarı ilə
Protokol №14 Reyestr № __
Mərkəzi Bankın sədri
E.S.Rüstəmov

# Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu tərəfindən müstəqil qiymətləndiricilər və sığorta şirkətlərinin seçilməsi və qiymətləndirilməsi Qaydaları

Bu Qaydalar “Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu haqqında Əsasnamə”yə və “Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondunun vəsaiti hesabına ipoteka kreditlərinin verilməsi Qaydaları”na uyğun olaraq hazırlanmışdır. Bu Qaydalar Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu tərəfindən (bundan sonra – AİF) müstəqil qiymətləndiricilər və sığorta şirkətlərinin seçilməsi və fəaliyyətlərinin qiymətləndirilməsinin aparılması prosedurlarını müəyyən edir.

## 1. Müstəqil qiymətləndiricilərin seçilməsi və fəaliyyətlərinin qiymətləndirilməsi

***Müstəqil qiymətləndiricilərin seçilməsi:***

1.1. AİF-in siyahısına daxil olmaq üçün müstəqil qiymətləndiricilər tərəfindən AİF-ə yazılı şəkildə müraciət olunur. Müraciətə aşağıdakı sənədlər əlavə edilir:

1.1.1. Müstəqil qiymətləndiricinin hüquqi sənədləri;

1.1.2. Müstəqil qiymətləndiricinin rəhbərliyinin və ekspertlərinin təhsili, iş təcrübəsi və peşəkarlıq səviyyəsi haqqında məlumatlar;

1.1.3. Müstəqil qiymətləndiricinin rəhbər işçilərinin vəzifəyə təyin olunması haqqında qərarların (əmrlərin) surətləri;

1.1.4. Müstəqil qiymətləndiricinin məsul şəxslərinin imza nümunələri və möhürünün əksi;

1.1.5. Son bir il ərzində xidmət göstərdiyi müştərilər haqqında məlumat;

1.1.6. Qanunvericiliklə müəyyən edilmiş hallarda audit rəyi ilə təsdiq olunmuş son bir il üçün maliyyə hesabatı (balans, mənfəət və zərər haqqında hesabatlar);

1.1.7. Qiymətləndirmə üzrə təsdiq olunmuş daxili metodologiya;

1.1.8. Müstəqil qiymətləndiricinin əməkdaşlıq etdiyi bank(lar) və ya digər hüquqi şəxs(lər) tərəfindən onun işinin səviyyəsini əks etdirən tövsiyyə məktubu;

1.2. Daxil olmuş müraciət AİF-in yenidən maliyyələşdirmə əməliyyatları ilə məşğul olan müvafiq şöbəsi tərəfindən 7 (yeddi) iş günü müddətində təhlil edilir və müvafiq rəy hazırlanır. Qiymətləndirmə zamanı aşağıdakı tələblər nəzərə alınır:

1.2.1. Müstəqil qiymətləndiricinin qiymətləndirmə sahəsində 1 (bir) il iş və ən azı 3 (üç) kredit təşkilatı ilə ipoteka predmetlərinin qiymətləndirilməsi üzrə əməkdaşlıq təcrübəsinin olması;

1.2.2. Son bir il ərzində qiymətləndirdiyi daşınmaz əmlakların sayının 10 (on)-dan az olmaması;

1.2.3. Qiymətləndirmə fəaliyyəti sahəsində peşəkarlıq səviyyəsini əks etdirən müvafiq sertifikatlarının mövcud olması;

1.2.4. Müstəqil qiymətləndiricinin daimi ofisinin olması və ekspertlərinin sayının 3 (üç) nəfərdən az olmaması.

1.3. Zərurət olduqda müraciət etmiş müstəqil qiymətləndiricidən digər aidiyyatı sənədlər də tələb oluna bilər. Tələb olunan sənədlərdən biri və ya bir neçəsi təqdim olunmazsa, müstəqil qiymətləndiricinin müraciəti və təqdim etdiyi sənədlər baxılmadan geri qaytarılır.

1.4. Qiymətləndirici barədə hazırlanmış rəy AİF-in Kredit komitəsinə təqdim edilir. Təqdim edilmiş rəy əsasında Kredit komitəsi tərəfindən 3 (üç) iş günü müddətində müraciət etmiş qiymətləndiricinin müstəqil qiymətləndiricilərin sırasına daxil edilməsi və ya imtina edilməsinə dair qərar qəbul olunur.

1.5. Qərar qəbul edildiyi tarixdən 3 (üç) iş günü müddətində müraciət etmiş müstəqil qiymətləndiriciyə yazılı bildiriş göndərilir və onunla müvafiq əməkdaşlıq sazişi imzalanır (Əlavə №1).

***Müstəqil qiymətləndiricilərin fəaliyyətinin qiymətləndirilməsi:***

1.6. AİF-in siyahısına daxil edilmiş hər bir müstəqil qiymətləndiricinin fəaliyyətinin effektivliyi ilin yekununa görə, zəruri hallarda isə aralıq dövrlər ərzində qiymətləndirilir.

1.7. Müstəqil qiymətləndiricinin fəaliyyətinin effektivliyi qiymətləndirmə haqqında hesabatlarının nə dərəcədə düzgün tərtib edilməsi, əmlakların dəyərlərinin real bazar şərtlərinə uyğun təyin edilməsi və məntiqi əsaslandırılması kimi amillər, habelə müstəqil qiymətləndiricinin peşəkar, şəffaf və obyektiv fəaliyyət göstərməsinə dəlalət edən digər amillər əsasında qiymətləndirilir.

1.8. Müstəqil qiymətləndirici tərəfindən 1.7-ci bənddə göstərilən tələblərin pozulması, şirkətin bazarda aktiv fəaliyyət göstərməməsi və il ərzində AİF-in xətti ilə verilmiş kreditlər üzrə qiymətləndirilmiş ipoteka predmetlərinin sayının 10 (on)-dan az olması, AİF-lə bağlanmış əməkdaşlıq sazişinin tələblərinin pozulması, habelə digər amillər onun müstəqil qiymətləndiricilərin siyahısından çıxarılmasına əsas verir.

1.9. Müstəqil qiymətləndiricilərin siyahısından çıxarılmış qiymətləndiriciyə, onun müvəkkillik statusundan məhrum edilməsinin səbəbi göstərilməklə 3 (üç) iş günü ərzində müvafiq bildiriş göndərilir.

1.10. Müvəkkil qiymətləndiricilərin siyahısı ilə bağlı məlumat AİF-in rəsmi saytında yerləşdirilir.

1.11. AİF müstəqil qiymətləndiricinin fəaliyyətinin effektivliyinin illik qiymətləndirməsinin nəticələri barədə məlumatları qiymətləndirmə başa çatdıqdan sonra 10 (on) iş günü ərzində Mərkəzi Bankın İdarə Heyətinə təqdim edir.

## 2. AİF-in siyahısına daxil olan sığorta şirkətlərinin seçilməsi və fəaliyyətinin qiymətləndirilməsi

***Sığorta şirkətlərinin seçilməsi:***

2.1. AİF-in siyahısına daxil olmaq üçün sığorta şirkətləri tərəfindən AİF-ə yazılı şəkildə müraciət olunur. Müraciətə aşağıdakı sənədlər əlavə olunur:

2.1.1. Şirkətin hüquqi sənədləri və lisenziyası;

2.1.2. Şirkətin rəhbərliyinin və ekspertlərinin təhsili, iş təcrübəsi və peşəkarlıq səviyyəsi haqqında məlumatlar;

2.1.3. Şirkətin rəhbər işçilərinin vəzifəyə təyin olunması haqqında qərarların (əmrlərin) surətləri;

2.1.4. Şirkətin məsul şəxslərinin imza nümunələri və möhürünün əksi;

2.1.5. Beynəlxalq audit şirkəti tərəfindən son il üçün aparılmış audit hesabatı və audit rəyi;

2.1.6. Həyat və əmlak sığortası qaydaları;

2.1.7. Şirkətin investisiya əməliyyatları haqqında məlumat;

2.1.8. Şirkətin təkrar sığorta siyasəti;

2.1.9. Beynəlxalq reytinq agentlikləri tərəfindən şirkətə verilmiş reytinq barədə məlumat (əgər belə reytinq verilibsə);

2.2. Daxil olmuş müraciət AİF-in yenidən maliyyələşdirmə əməliyyatları ilə məşğul olan müvafiq şöbəsi tərəfindən 7 (yeddi) iş günü müddətində təhlil edilir və müvafiq rəy hazırlanır. Qiymətləndirmə zamanı aşağıdakı amillər nəzərə alınır:

2.2.1. Şirkətin məcmu kapitalının məbləği;

2.2.2. Şirkət tərəfindən aparılmış sığorta ödənişlərinin yığılmış sığorta haqlarına olan nisbəti;

2.2.3. Yığılmış sığorta haqlarının həcminə görə sığorta şirkətləri arasında tutduğu yer;

2.2.4. Franşizanın sığorta növləri üzrə tətbiq olunması qaydası, onun forması və həcmi.

2.3. Zərurət olduqda müraciət etmiş şirkətdən digər aidiyyatı sənədlər də tələb oluna bilər. Tələb olunan sənədlərdən biri və ya bir neçəsi təqdim olunmazsa, şirkətin müraciəti və təqdim etdiyi sənədlər baxılmadan geri qaytarılır.

2.4. Hazırlanmış rəy AİF-in Kredit komitəsinə təqdim edilir. Təqdim edilmiş rəy əsasında Kredit komitəsi tərəfindən 3 (üç) iş günü müddətində müraciət etmiş şirkətin AİF-in sığorta şirkətlərinin siyahısına daxil edilməsi və ya imtina edilməsinə dair qərar qəbul olunur.

2.5. Qəbul olunmuş qərar barədə 3 (üç) iş günü müddətində müraciət etmiş şirkətə yazılı bildiriş göndərilir və onunla müvafiq əməkdaşlıq sazişi imzalanır (Əlavə №2).

***Sığorta şirkətlərinin fəaliyyətlərinin qiymətləndirilməsi:***

2.6. AİF-in siyahısına daxil olan hər bir sığorta şirkətinin fəaliyyətinin effektivliyi ilin yekununa görə, zəruri hallarda isə aralıq dövrlər ərzində qiymətləndirilməlidir.

2.7. Sığorta şirkətinin fəaliyyətinin effektivliyinin qiymətləndirilməsi nizamnamə kapitalının qanunvericiliklə müəyyən olunmuş səviyyədə olması, yığılmış sığorta haqları üzrə şirkətin sığorta şirkətləri arasında tutduğu yer və digər amillər əsasında aparılır.

2.8. Sığorta şirkəti tərəfindən 2.7-ci bənddə göstərilən tələblərə əməl olunmaması, franşizanın tətbiq olunma hallarının olması, sığorta bazarında aktiv fəaliyyət göstərməməsi, maliyyə durumunun kəskin pisləşməsi, Fondla bağlanmış əməkdaşlıq sazişinin tələblərinin pozulması və sair bu kimi amillər şirkətin AİF-in siyahısından çıxarılmasına əsas verir.

2.9. Müvəkkil sığorta şirkətləri siyahısından çıxarılmış şirkətə onun müvəkkillik statusundan məhrum edilməsinin səbəbi göstərilməklə 3 (üç) iş günü ərzində müvafiq bildiriş göndərilir.

2.10. Müvəkkil sığorta şirkətlərinin siyahısı ilə bağlı məlumat AİF-in rəsmi saytında yerləşdirilir.

2.11. AİF sığorta şirkətlərinin fəaliyyətinin effektivliyinin illik qiymətləndirməsinin nəticələri barədə məlumatları qiymətləndirmə başa çatdıqdan sonra 10 (on) iş günü ərzində Mərkəzi Bankın İdarə Heyətinə təqdim edir.

## 3. Yekun müddəalar

3.1. Fəaliyyətinin qiymətləndirilməsi nəticəsində AİF-in siyahısından çıxarılmış müstəqil qiymətləndiricilər və sığorta şirkətləri növbəti 1 (bir) il ərzində yenidən müvəkkillik statusu əldə edə bilməzlər.

3.2. Bu Qaydalarda həllini tapmamış məsələlər AİF-in digər normativ aktları və Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

3.3. Bu Qaydalar imzalandığı gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **E.S.Rüstəmov**

Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin "15" may 2009-cu il tarixli qərarı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu tərəfindən müstəqil qiymətləndiricilər və sığorta şirkətlərinin seçilməsi və qiymətləndirilməsi Qaydaları"na **Əlavə № 1**

# ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

**№ ___**

Bakı şəhəri «____»__________ 20____il

Bundan sonra Fond adlandırılacaq, öz Əsasnaməsi əsasında fəaliyyət göstərən Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu, İcraçı direktor ______________ şəxsində, bir tərəfdən və bundan sonra Müstəqil qiymətləndirici adlandırılacaq ___________________________, _______________________ şəxsində, digər tərəfdən, aşağıdakılar barədə bu Əməkdaşlıq haqqında sazişi bağlayırlar:

## 1. Sazişin predmeti

1.1. Bu Saziş Fondun vəsaiti hesabına verilən ipoteka kreditləri üzrə ipoteka predmeti olan daşınmaz əmlakların qiymətləndirilməsi üzrə Tərəflərin qarşılıqlı fəaliyyətinin təşkili, onların hüquq və vəzifələri, müstəqil qiymətləndiricinin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Bu Sazişin imzalanmasından sonra 7 (yeddi) iş günü ərzində onun bağlanması barədə məlumat Fond tərəfindən müvəkkil kredit təşkilatlarına göndərilir və müstəqil qiymətləndiricinin rekvizitləri Fondun rəsmi internet saytında yerləşdirilir.

1.3. Müstəqil qiymətləndirici Fondun vəsaiti hesabına verilən ipoteka kreditləri ilə bağlı ona daxil olmuş müraciətlər üzrə ipoteka predmeti olan daşınmaz əmlakların ödənişli əsaslarla qiymətləndirilməsini həyata keçirir. Qiymətləndirmə hesabatlarının forma və məzmununun Fondun tələblərinə uyğun olması müstəqil qiymətləndirici tərəfindən təmin edilir.

## 2. Tərəflərin hüquq və vəzifələri

2.1. **Bu Saziş üzrə Fondun aşağıdakı hüquq və vəzifələri vardır:**

2.1.1. Rübdə ən azı 1 (bir) dəfə olmaqla müvəkkil kredit təşkilatlarının verdiyi kreditlər üzrə ipoteka predmeti olan daşınmaz əmlakların qiymətləndirilməsi barədə müvafiq yazılı məlumatları müstəqil qiymətləndiricidən tələb etmək;

2.1.2. Fəaliyyət ilində ən azı 1 (bir) dəfə olaraq müstəqil qiymətləndiricinin fəaliyyətini qiymətləndirmək;

2.1.3. Fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı və zəruri hallarda müstəqil qiymətləndiriciyə sorğu verərək müvafiq məlumatları ondan almaq;

2.1.4. Qiymətləndirmə zamanı müstəqil qiymətləndiricinin fəaliyyətində nöqsanlar aşkar edilərsə, onu müvəkkil qiymətləndiricilərin siyahısından çıxarmaq və bu

barədə ona, digər bazar iştirakçılarına məlumat göndərməklə, həmin məlumatı Fondun rəsmi saytında yerləşdirmək;

2.1.5. Fond ilə yeni müvəkkil kredit təşkilatları arasında Baş Sazişin bağlanmasından 7 (yeddi) iş günü ərzində belə Sazişin bağlanması barədə müstəqil qiymətləndiricini məlumatlandırmaq.

2.2. **Müstəqil qiymətləndiricinin aşağıdakı hüquq və vəzifələri vardır:**

2.2.1. Fondun müvəkkil kredit təşkilatlarının verdiyi kreditlər üzrə ipoteka predmeti olan daşınmaz əmlakların qiymətləndirmə standartlarına və normalarına uyğun olaraq qiymətləndirilməsini həyata keçirmək;

2.2.2. Qiymətləndirmənin həyata keçirilməsi üçün zəruri sənədləri müvafiq müvəkkil kredit təşkilatından və borcalandan almaq;

2.2.3. Qiymətləndirmənin həyata keçirilməsi zamanı mövcud olan problemlər və uyğunsuzluqlar barədə Fonda müraciət etmək;

2.2.4. Fəaliyyəti zamanı "Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondunun yenidən maliyyələşdirdiyi ipoteka kreditlərinin müvəkkil kredit təşkilatları tərəfindən verilməsinə dair standart Tələblər"ə və "Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu tərəfindən müstəqil qiymətləndiricilər və sığorta şirkətlərinin seçilməsi və qiymətləndirilməsi Qaydaları"nın tələblərinə riayət etmək;

2.2.5. Qiymətləndirmə rəyi əsasında tətbiq ediləcək hesabatda Fondun tələb etdiyi minimal göstəriciləri nəzərə almaq;

2.2.6. İpoteka kreditləri üzrə borcalanlara keyfiyyətli xidmət göstərmək;

2.2.7. İpoteka qoyulan daşınmaz əmlakla bağlı sənədlərin hüquqi düzgünlüyünü yoxlamaq;

2.2.8. Qiymətləndirdiyi ipoteka predmetlərinə dair yazılı məlumatları rübdə ən azı 1 (bir) dəfə olmaqla Fonda göndərmək;

2.2.9. Fondu bu Sazişə əsasən öz vəzifələrini yerinə yetirmək üçün lazım olan sənədlər və materiallarla təmin etmək.

## 3. Müstəqil qiymətləndiricinin Fondun siyahısından çıxarılması

3.1. Müstəqil qiymətləndiricinin Fondun siyahısından çıxarılması aşağıdakı hallarda həyata keçirilir:

3.1.1. Müstəqil qiymətləndiricinin fəaliyyətinin Fond tərəfindən qiymətləndirilməsi zamanı "Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu tərəfindən müstəqil qiymətləndiricilər və sığorta şirkətlərinin seçilməsi və qiymətləndirilməsi Qaydaları"nın 1.7 və 1.8-ci bəndlərinin tələblərinin pozulması aşkar edildikdə;

3.1.2. Müstəqil qiymətləndiricinin müraciəti əsasında;

3.1.3. Qanunvericilikdə müəyyən edilmiş digər hallarda.

3.2. Müstəqil qiymətləndiricinin fəaliyyətinin qiymətləndirilməsi ilin yekununa əsasən, zəruri hallarda isə aralıq dövrlər üçün Fondun öz təşəbbüsü, müvəkkil

kredit təşkilatlarının və ya borcalanların müraciəti əsasında həyata keçirilir. Qiymətləndirmə zamanı "Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu tərəfindən müstəqil qiymətləndiricilər və sığorta şirkətlərinin seçilməsi və qiymətləndirilməsi Qaydaları"nda göstərilən tələblərlə yanaşı müvəkkil kredit təşkilatlarının və borcalanların da rəyi nəzərə alınır.

## 4. Yekun müddəalar

4.1. Bu Saziş Fond və müstəqil qiymətləndirici tərəfindən imzalandığı gündən qüvvəyə minir və tərəflər bu Saziş üzrə öhdəlikərini tam yerinə yetirənədək qüvvədə qalır.

4.2. Bu Sazişə hər hansı əlavə və dəyişiklik hər iki tərəfin yazılı razılığı ilə həyata keçirilə bilər.

4.3. Tərəflərdən - müstəqil qiymətləndirici Fondu ən azı 1 (bir) ay əvvəl xəbərdar etməklə, Fond isə müvəkkillik statusundan məhrum edilməsi səbəbləri olduqda, müstəqil qiymətləndiricini 3 (üç) iş günü ərzində bu barədə xəbərdar etməklə bu Sazişə xitam verilə bilər.

4.4. Bu Saziş iki nüsxədə tərtib olunub və tərəflərin hər birində bir nüsxəsi saxlanılır.

## 5. Tərəflərin hüquqi ünvanı və rekvizitləri

| **Fond**<br>**Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu** | **Müstəqil qiymətləndirici**<br>________________________<br>__________________ |
|---|---|
| VÖEN ______________ | VÖEN ______________ |
| Ünvan_______________ | Ünvan_______________ |
| Bank hesabı_____________ | Bank hesabı_____________ |
| **İcraçı direktor** | **Rəhbər** |
| ____________________<br>M.Y. | ____________________<br>M.Y. |

Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin “15” may 2009-cu il tarixli qərarı ilə təsdiqlənmiş “Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu tərəfindən müstəqil qiymətləndiricilər və sığorta şirkətlərinin seçilməsi və qiymətləndirilməsi Qaydaları”na **Əlavə № 2**

## ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

**№ ___**

Bakı şəhəri «____»__________ 20_____il

Bundan sonra Fond adlandırılacaq, öz Əsasnaməsi əsasında fəaliyyət göstərən Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu, İcraçı direktor _____________şəxsində, bir tərəfdən və bundan sonra Sığorta şirkəti adlandırılacaq _______________________________________________, ______________________________ şəxsində, digər tərəfdən aşağıdakılar barədə bu Əməkdaşlıq haqqında sazişi bağlayırlar:

### 1. Sazişin predmeti

1.1. Bu Saziş Fondun vəsaiti hesabına verilən ipoteka kreditləri üzrə ipoteka predmeti olan daşınmaz əmlakların, borcalanların həyat və əmək qabiliyyətlərinin sığorta şirkəti tərəfindən sığortalanması üzrə tərəflərin qarşılıqlı fəaliyyətinin təşkili, onların hüquq və vəzifələri, sığorta şirkətinin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Bu Sazişin imzalanmasından sonra 7 (yeddi) iş günü ərzində onun bağlanması barədə məlumat Fond tərəfindən müvəkkil kredit təşkilatlarına göndərilir və müvəkkil sığorta şirkətinin rekvizitləri Fondun rəsmi internet saytında yerləşdirilir.

1.3. Müvəkkil sığorta şirkəti isə Fondun vəsaiti hesabına verilən ipoteka kreditləri ilə bağlı ona daxil olmuş müraciətlər üzrə ipoteka predmeti olan daşınmaz əmlakların, borcalanların həyat və əmək qabiliyyətlərinin sığortalanmasını həyata keçirir. Sığorta şirkəti, onun tərəfindən tətbiq olunacaq sığorta müqavilələrinin nümunəvi formasını Fondla razılaşdırır.

### 2. Tərəflərin hüquq və vəzifələri

2.1. **Bu Saziş üzrə Fondun aşağıdakı hüquq və vəzifələri vardır:**

2.1.1. Rübdə ən azı 1 (bir) dəfə olmaqla müvəkkil kredit təşkilatlarının verdiyi kreditlər üzrə ipoteka predmeti olan daşınmaz əmlakların, borcalanların həyat və əmək qabiliyyətlərinin sığortalanması barədə müvafiq yazılı məlumatı sığorta şirkətindən tələb etmək;

2.1.2. Fəaliyyət ilində ən azı 1 (bir) dəfə olaraq sığorta şirkətinin fəaliyyətini qiymətləndirmək;

2.1.3. Şirkətin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı və zəruri hallarda sığorta şirkətinə sorğu verərək müvafiq məlumatları ondan almaq;

2.1.4. İllik qiymətləndirmə zamanı sığorta şirkətinin fəaliyyətində nöqsanlar (franşizanın tətbiq edilməsi hallarının olması, sığorta bazarında aktiv fəaliyyət göstərməməsi və yığılmış sığorta haqlarının həcminə görə sığorta şirkətləri arasında sonuncu yerlərdə qərarlaşması və sair) aşkar edilərsə, onu müvəkkil sığorta şirkətlərinin siyahısından çıxarmaq və bu barədə ona, digər bazar iştirakçılarına məlumat göndərməklə, həmin məlumatı Fondun rəsmi saytında yerləşdirmək;

2.1.5. Fond ilə yeni müvəkkil kredit təşkilatları arasında Baş Sazişin bağlanmasından 7 (yeddi) iş günü ərzində belə Sazişin bağlanması barədə sığorta şirkətini məlumatlandırmaq.

2.2. **Sığorta şirkətinin aşağıdakı hüquq və vəzifələri vardır:**

2.2.1. Fəaliyyəti zamanı "Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondunun yenidən maliyyələşdirdiyi ipoteka kreditlərinin müvəkkil kredit təşkilatları tərəfindən verilməsinə dair standart Tələblər" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu tərəfindən müstəqil qiymətləndiricilər və sığorta şirkətlərinin seçilməsi və qiymətləndirilməsi Qaydaları"nın tələblərinə riayət etmək;

2.2.2. Fondun müvəkkil kredit təşkilatlarının verdiyi kreditlər üzrə ipoteka predmeti olan daşınmaz əmlakları, borcalanların həyat və əmək qabiliyyətlərini sığortalamaq;

2.2.3. Sığorta müqavilələrində Fond tərəfindən təklif olunan şərtləri nəzərə almaq;

2.2.4. Sığorta müqavilələri üzrə franşiza tətbiq etməmək;

2.2.5. Sığorta əməliyyatlarının həyata keçirilməsi üçün zəruri sənədləri müvafiq müvəkkil kredit təşkilatından və borcalandan almaq;

2.2.6. Sığorta əməliyyatının həyata keçirilməsi zamanı mövcud olan problemlər və uyğunsuzluqlar barədə Fonda müraciət etmək;

2.2.7. Potensial Borcalanın (İpotekaqoyanın) şəxsiyyətini, ipoteka qoyulan daşınmaz əmlakın sənədlərinin hüquqi düzgünlüyünü yoxlamaq;

2.2.8. Sığorta müqavilələri barədə hesabatları rübdə ən azı 1 (bir) dəfə olmaqla Fonda göndərmək;

2.2.9. Fondu bu Sazişə əsasən öz vəzifələrini yerinə yetirmək üçün lazım olan sənədlər və materiallarla təmin etmək;

2.2.10. Sığorta müqaviləsi (sığorta polisi) üzrə faydagötürənin dəyişilməsi və ya sığorta müqaviləsinə (sığorta polisinə) istənilən digər dəyişikliklər edilməsinə dair, o cümlədən sığorta müqaviləsinə (sığorta polisinə) xitam verilməsi niyyəti barədə ərizənin daxil olması haqda 2 (iki) iş günü ərzində istənilən mümkün üsulla Fondu məlumatlandırmaq;

2.2.11. Sığorta şirkəti ilə Borcalan (İpotekaqoyan) arasında bağlanmış sığorta müqaviləsi (sığorta polisi) üzrə sığorta hadisəsinin baş verməsi barədə 2 (iki) iş günü ərzində istənilən mümkün üsulla Fondu və ya müvafiq müvəkkil kredit təşkilatını məlumatlandırmaq.

### 3. Sığorta şirkətinin Fondun siyahısından çıxarılması

3.1. Sığorta şirkətinin Fondun siyahısından çıxarılması aşağıdakı hallarda həyata keçirilir:

3.1.1. Sığorta fəaliyyətinin Fond tərəfindən qiymətləndirilməsi zamanı "Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu tərəfindən müstəqil qiymətləndiricilər və sığorta şirkətlərinin seçilməsi və qiymətləndirilməsi Qaydaları"nın 2.7 və 2.8-ci bəndlərinin tələblərinin pozulması aşkar edildikdə;

3.1.2. Sığorta şirkətinin müraciəti əsasında;

3.1.3. Qanunvericilikdə müəyyən edilmiş digər hallarda.

3.2. Sığorta şirkətinin fəaliyyətinin qiymətləndirilməsi ilin yekununa əsasən, zəruri hallarda isə aralıq dövrlər üçün Fondun öz təşəbbüsü, müvəkkil kredit təşkilatlarının və ya borcalanların müraciəti əsasında həyata keçirilir. Qiymətləndirmə zamanı "Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu tərəfindən müstəqil qiymətləndiricilər və sığorta şirkətlərinin seçilməsi və qiymətləndirilməsi Qaydaları"nda göstərilən tələblərlə yanaşı müvəkkil kredit təşkilatlarının və borcalanların da rəyi nəzərə alınır.

### 4. Yekun müddəalar

4.1. Bu Saziş Fond və sığorta şirkəti tərəfindən imzalandığı gündən qüvvəyə minir və tərəflər bu Saziş üzrə öhdəlikərini tam yerinə yetirənədək qüvvədə qalır.

4.2. Bu Sazişə hər hansı əlavə və dəyişiklik hər iki tərəfin yazılı razılığı ilə həyata keçirilə bilər.

4.3. Tərəflərdən – sığorta şirkəti Fondu ən azı 1 (bir) ay əvvəl xəbərdar etməklə, Fond isə müvəkkillik statusundan məhrum edilməsi səbəbləri olduqda, sığorta şirkətini 3 (üç) iş günü ərzində bu barədə xəbərdar etməklə bu Sazişə xitam verilə bilər.

4.4. Bu Saziş iki nüsxədə tərtib olunub və tərəflərin hər birində bir nüsxəsi saxlanılır.

### 5. Tərəflərin hüquqi ünvanı və rekvizitləri

| | |
|---|---|
| **Fond**<br>**Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu**<br>VÖEN ______________<br>Ünvan_______________<br>Bank hesabı_____________ | **Sığorta şirkəti**<br>_________________________<br>__________________<br>VÖEN ______________<br>Ünvan_______________<br>Bank hesabı_____________ |
| **İcraçı direktor**<br>____________________<br>M.Y. | **Rəhbər**<br>____________________<br>M.Y. |